ISSN: 2181-4341, IMPACT FACTOR (RESEARCH BIB) – 9.145, SJIF – 5,431

Ulduz Fərhad Qəhrəmanova

filologiya üzrə fəlsəfə doktoru,

Azərbaycan Dövlət Pedaqoji Universiteti,

"Ədəbiyyat" kafedrasında dosent əvəzi

ulduzkahraman1@gmail.com

Orcid İD: 0009-0003-4418-9319

ƏDƏBIYYATŞÜNASLıQDA KONTAMINASIYA VƏ KOMBINASIYA PROBLEMI (SÜJET IÇINDƏ SÜJET PRINSIPI)

Annotasiya: Məqalədə bədii ədəbiyyatda bir neçə süjetin birləşməsindən təşkil olunmuş mürəkkəb kompozisiyaya məxsus təhkiyə ənənəsindən bəhs edilmişdir. Tədqiqatçı kontaminasiya probleminin həm epik, həm də lirik əsərlərdə də özünü göstərməsini elmi əsərində nəzəri təhlilini aparmışdır. Elmi təhlillərdən məlum olur ki, kontaminasiya, yəni süjet birləşmələri əslində bir yaradıcılıq üsuludur. Elmi araşdırmada kontaminasiyada süjetlərin özünü iki şəkildə təzahür etdirməsi nümunələrlə təsdiq edilmişdir.

Açar sözlər: Süjet, kontaminasiya, kombinasiya, ədəbiyyat, mexaniki süjet birləşmələri, tabeçililik əsasında qurulan süjet birləşmələri

Abstrakt: Mexaniki prinsiplə süjetlərin müstəqil adla birləşməsi şəklində: Yəni bərabərhüquqlu süjetlərin birləşməsidir. Bu kontaminasiya düz xətt üzrə inkişaf edir. Bəzən bu kontaminasiya ədəbiyyatşünaslıqda dövrləşmə üzrə qurulan əsərlərdə də özünü göstərir. Belə ki, dövrləşmə üzrə qurulan əsərlərdə süjetlərin hər biri öz bütövlüyünü saxlayır və hər biri müstəqil süjet kimi bədii əsərə daxil olur. Müstəqil süjet kimi daxil olduğuna görə də hər bir süjet sanki öz adı ilə verilir və kombinasiya qurulmadan mexaniki olaraq süjetlər birləşdirilir.

Tabelçilik prinsipi ilə asılı və əsas süjetlərin vahid bir adla birləşməsi şəklində: Yəni əsas və asılı tərəf münasibətlərində asılı tərəfin süjet xətti əsas tərəfin süjet xəttinə tabe tutulur. Bu zaman kombinasiya problemi ortaya çıxır. Deməli, kombinasiya problemi asılı süjetlərin əsərdə öz müstəqilliyini itirərək əsas süjetlə vahid süjet məcrada birləşməsidir. Ona görə də kombinasiya üzərində qurulan mətnlər vahid bir adla təqdim edilir. Deməli, ədəbiyyatşünaslıqda tabelçilik prinsipi ilə ayrı-ayrı süjetlərin kombinasiya yolu ilə birləşməsi yaradıcı birləşmə hesab edilir. Yəni: yaradıcı birləşməyə gedən yol kombinasiyadan başlayır. Yaradıcı kontaminasiya yolu ilə başlayan kombinasiya süjetlərdəki konfliktlərin güclənməsinə xidmət edir. Deməli, kombinasiya yaradıcı birləşmədir desək, daha doğru olardı. Yaradıcı kontaminasiyada isə kombinasiya ümumi qanunauyğunluğa tabe tutulur, süjetlər vahid məcrada birləşərək bütöv, vahid bir əsərə çevrilir.

Açar sözlər: Süjet, kontaminasiya, kombinasiya, ədəbiyyat, mexaniki süjet birləşmələri, tabeçililik əsasında qurulan süjet birləşmələri

Məlumdur ki, bədii ədəbiyyatda bir neçə süjetin birləşməsindən təşkil olunmuş mürəkkəb kompozisiyaya məxsus təhkiyə ənənəsinə də rast gəlmək mümkündür. Buna ədəbiyyatşünaslıqda

kontaminasiya, yəni süjet birləşmələri deyilir. Kontaminasiya termini latınca dolaşıqlıq, qarışıqlıq anlamına gələn contaminatio sözündən yaranıb və müxtəlif elm sahələrində istifadə olunur. Bədii ədəbiyyatda iki və daha artıq hadisənin təsvir zamanı birləşdirilməsi, çarpazlaşması kontaminasiya adlanır. Əslində kontaminasiya, yəni süjet birləşməsi bir yaradıcılıq hadisəsidir.

Kontaminasiya ədəbiyyatda süjet birləşmələri hesab edilir və nağıllarda daha çox kontaminasiyaya rast gəlinir. Məsələn: "Min bir gecə", "Kəlilə və Dimnə", "Qırx dərviş", "Tutinamə" kimi Şərq ədəbiyyatının möhtəşəm nümunələri də məhz süjet birləşmələrindən təşkil olunmuşdur. Kontaminasiyanın pozulması süjetlərin müstəqil nağıl kimi verilməsinə səbəb olur. Əsərdəki süjetlərin müstəqil süjet şəklində verilməsi kontaminasiyanın bilməyərəkdən pozulmasıdır. Bu da kontaminasiyanın mahiyyətini dərk etməməkdir.

Kontaminasiya problemi həm epik, həm də lirik əsərlərdə də özünü göstərir. Kontaminasiya, yəni süjet birləşmələri əslində bir yaradıcılıq üsuludur. Kontaminasiyada süjetlər özünü iki şəkildə təzahür etdirir:

1. Mexaniki prinsiplə **süjetlərin müstəqil adla** birləşməsi şəklində: Yəni bərabərhüquqlu süjetlərin birləşməsidir. Bu kontaminasiya düz xətt üzrə inkişaf edir. Bəzən bu kontaminasiya ədəbiyyatşünaslıqda dövrləşmə üzrə qurulan əsərlərdə də özünü göstərir. Belə ki, dövrləşmə üzrə qurulan əsərlərdə süjetlərin hər biri öz bütövlüyünü saxlayır və hər biri müstəqil süjet kimi bədii əsərə daxil olur. Müstəqil süjet kimi daxil olduğuna görə də hər bir süjet sanki öz adı ilə verilir və kombinasiya qurulmadan mexaniki olaraq süjetlər birləşdirilir.

Mexaniki birləşmə sərişdəsiz söyləyiciyə xas olan xüsusiyyətdir. Belə ki bir süjetdən digər süjetə keçid mexaniki şəkildə icra olur. Yəni: unudulan, yaddan çıxan hissənin təhkiyəçi tərəfindən qeyri-şüuri şəkildə doldurulmasıdır. Ona görə də mexaniki kontaminasiyada ümumi qanunauyğunluq gözlənilmir. Məsələn: "Şah Abbas" nağılında 3 süjetin mexaniki birləşməsindən istifadə edilmişdir.

2. Tabelçilik prinsipi ilə asılı və əsas **süjetlərin vahid bir adla** birləşməsi şəklində: Yəni əsas və asılı tərəf münasibətlərində asılı tərəfin süjet xətti əsas tərəfin süjet xəttinə tabe tutulur. Bu zaman **kombinasiya** problemi ortaya çıxır. Deməli, kombinasiya problemi asılı süjetlərin əsərdə öz müstəqilliyini itirərək əsas süjetlə vahid süjet məcrada birləşməsidir. Ona görə də kombinasiya üzərində qurulan mətnlər **vahid bir adla** təqdim edilir.

Deməli, ədəbiyyatşünaslıqda tabelçilik prinsipi ilə ayrı-ayrı süjetlərin kombinasiya yolu ilə birləşməsi **yaradıcı birləşmə** hesab edilir. Yəni: yaradıcı birləşməyə gedən yol kombinasiyadan başlayır. Yaradıcı kontaminasiya yolu ilə başlayan kombinasiya süjetlərdəki konfliktlərin güclənməsinə xidmət edir. Deməli, **kombinasiya yaradıcı birləşmədir** desək, daha doğru olardı. **Yaradıcı kontaminasiyada** isə kombinasiya ümumi qanunauyğunluğa tabe tutulur, süjetlər vahid məcrada birləşərək bütöv, vahid bir əsərə çevrilir.

Yaradıcı kontaminasiya peşəkar, sərişdəli təhkiyəçiyə xas yaradıcılıq manevridir. Çünki bu peşəkar təhkiyəçi kombinasiya zamanı əsəri vahid məcrada birləşdirmək üçün improvizasiyaya mütləq meyl etməlidir.

Kontaminasiyada 2 məqsəd vardı:

1. Əsas obrazı açmaq üçün süjetlər kombinasiya yolu ilə birləşdirilir. Bu yaradıcı kontaminasiyaya xas xüsusiyyətdir.

2. Mətnin həcmini şüurlu şəkildə genişləndirmək üçün süjetlər birləşdirilir. Bu da mexaniki kontaminasiyaya aid xüsusiyyətdir.

Kontaminasiya süjetləri parçalamır, tam əksi kombinasiya edir və süjetləri vahid süjet xətti ətrafında birləşdirir. Deməli, kontaminasiyada kombinasiya asılı süjetin əsas süjetə tabe edilməsi hesabına baş verir. Bu zaman asılı süjet özünün bir çox komponentini itirir, yeni forma və məzmun yaranır. Əslində yaradıcı kontominasiya spontan deyil, qabaqcadan düşünülmüş, məqsədli və şüurlu bir yaradıcılıq hadisəsidir. Bu şüurlu yaradıcılıq hadisəsi əsas süjetdən asılı süjetə keçid zamanı əsaslandırmanın güclü olmasından aslıdır.

Kontaminasiya, əslində, mürəkkəb bədii priyomdur. Yaradıcı kontaminasiyada milli poetik ənənənin böyük təsiri vardır. Mexaniki kontominasiya spontan (nəyinsə heçnədən təsirlənmədən öz-özünə baş verməsi-U.Q.) şəkildə baş verir. Deməli, kontominasiya ümumi qanunauyğunluqları olan yaradıcılıq hadisəsidir. Kontaminasiya ənənəvi formanın yenidən doğuluşu, yenidən biçimlənməsidir.

Kontaminasiya mürəkkəb kompozisiyaya aid olub qəhrəmanın **ömür yolunun anları** hesab edilir. **Kombinasiya isə sadə kompozisiyaya** aid olub qəhrəmanın **ömür yolunun sadəcə bir anının** verilməsidir. Mürəkkəb kompozisiya süjet çulğalaşması ilə təşkil edilir. Süjet çulğalaşması asılı və əsas süjetlərin vəhdəti deməkdir. Süjet çulğalaşmaları (calaq edilməsi-U.Q.) peşəkar söyləyicilərin yaradıcılığının məhsuludur. Peşəkar söyləyici süjet çulğalaşmasında süjetləri birləşdirəndə lazimi bağ yaradılmasını, yəni keçidi (U.Q.) ustalıqla bacarır. Bu zaman kombinasiya yaradır, yəni bütöv əsərə bərpa yolu ilə çevrilmədir. Belə ki: nağılda, 3, 5, 8 və s. fərqli süjetlərə rast gəlmək mümkündür. Məsələn: "Məlik Məmmədlə Məlik Əhməd" nağılı 3 süjetin birləşməsindən təşkil edilib. Nağılın baş qəhrəmanı Məlik Məmməd olsa da, aktiv personaj Məlik Əhməddir.

1.Məlik Məmmədin 7 qardaşın bir bacısına aşiq olması süjeti

2. Divin qızı qaçırtması süjeti və Məlik Əhmədin divi öldürüb qızı xilas etməsi süjeti

3. Məlik Əhmədin Məlik Məmmədi nigah gecəsi gözləyən təhlükələrdən xilas etməsi süjeti

Kontaminasiya təhkiyəçinin (yazılı epik əsərlərdə-U.Q.) süjet içində süjetin söylənilməsi prinsipi ilə gerçəkləşir. Yəni şifahi xalq ədəbiyyatında **söyləyicinin (şifahi epik əsərlərdə-U.Q**.)nağıl içində nağıl söylənilməsi prinsipi ilə həyata keçirilir. Nağılçılıq ənənəsinin tənəzzülü dövründə kontaminasiya da yoxa çıxır.

Kontaminasiyanın üsulları vardır. **Kontaminasiyanın üsulları calaq edilmiş süjetlərin bir araya gətirmək bacarığıdır.** Kontaminasiya üsulları 3 cür olur:

1. Ənənəvi üsul
2. Fərdi üsul.
3. Yaranmış münaqişəni hekayə danışmaqla həll etmək.
4. Konflikt yaratmaqla hadisələrin inkişaf etdirilməsi

Kontaminasiya istənilən süjetin bir-birinə calaq edilməsi deyil. Yəni söyləyici istənilən süjeti bir-birinə calaq etməklə süjet çuğlaşması (süjetin calq edilməsini-U.Q.) yarada bilməz. Süjet çuğlaşması əlaqəsi olan süjetlərin bir-birinə calaq edilməsidir. Bu zaman kontaminasiyanın üsulları formalaşmış olur. Yəni bir-birilə uyum saxlayan süjetlərin, öz alarında tematik yaxınlığı olan süjetlərin bir-birinə calaq edilməsidir. Bu baxımdan süjet daxili kontaminasiyalar yaranır. **Və süjet daxili komtaminasiyaların da 2 növü** vardır:

1.Tematik kontaminasiyalar: Bir-birinə uyum saxlayan süjetlərin calaq olunmasıdır. Yəni: oxşar məzmunlu, eyni qəhrəman tipli süjetlərin birləşməsidir.

2.Personaj üzərində qurulan kontaminasiyalar: Hadisələr qəhrəmanın ətrafında cərəyan edir. Belə ki, hadisələr personajın səhnəyə çıxması ilə başlayır, qarşıya qoyduğu məqsədə çatması ilə tamamlanır. Loğman, Keçəl, İsgəndər, Şah Abbas haqqında şifahi ənənədə mövcud olan süjetləri söyləyici bir personaj ətrafında cəmləməklə yeni nağıllar yaratmışdır.

Süjet daxili süjet mürəkkəb kompozisiyaya aid olub qəhrəmanın ömür yolunun anları hesab edilir. Kombinasiya isə sadə kompozisiyaya aid olub qəhrəmanın ömür yolunun sadəcə bir anının verilməsidir. Mürəkkəb kompozisiya süjet çulğalaşması ilə təşkil edilir. Süjet çulğalaşması asılı və əsas süjetlərin vəhdəti deməkdir. Süjet çulğalaşmaları (calaq edilməsi-U.Q.) peşəkar söyləyicilərin yaradıcılığının məhsuludur. Peşəkar söyləyici süjet çulğalaşmasında süjetləri birləşdirəndə lazimi bağ yaradılmasını, yəni keçidi (U.Q.) ustalıqla bacarır. Bu zaman kombinasiya yaradır, yəni bütöv əsərə bərpa yolu ilə çevrilmədir.

Süjet daxili süjet prinsipi süjetləri parçalamır, tam əksi kombinasiya edir və süjetləri vahid süjet xətti ətrafında birləşdirir. Deməli, kontaminasiyada kombinasiya asılı süjetin əsas süjetə tabe edilməsi hesabına baş verir. Bu zaman asılı süjet özünün bir çox komponentini itirir, yeni forma və məzmun yaranır. Əslində yaradıcı süjet daxili süjet prinsipi spontan deyil, qabaqcadan düşünülmüş, məqsədli və şüurlu bir yaradıcılıq hadisəsidir. Bu şüurlu yaradıcılıq hadisəsi əsas süjetdən asılı süjetə keçid zamanı əsaslandırmanın güclü olmasından aslıdır.

Süjet daxili süjet prinsipi ədəbiyyatşünaslıqda kontaminasiya termini ilə də ifadə edilir. Kontaminasiya, əslində, mürəkkəb bədii priyomdur. Yaradıcı kontaminasiyada milli poetik ənənənin böyük təsiri vardır. Mexaniki kontominasiya spontan (nəyinsə heçnədən təsirlənmədən öz-özünə baş verməsi-U.Q.) şəkildə baş verir. Deməli, kontominasiya ümumi qanunauyğunluqları olan yaradıcılıq hadisəsidir. Kontaminasiya ənənəvi formanın yenidən doğuluşu, yenidən biçimlənməsidir. Belə ki: nağılda, 3, 5, 8 və s. fərqli süjetlərə rast gəlmək mümkündür. Məsələn: "Məlik Məmmədlə Məlik Əhməd" nağılı 3 süjetin birləşməsindən təşkil edilib. Nağılın baş qəhrəmanı Məlik Məmməd olsa da, aktiv personaj Məlik Əhməddir.

1.Məlik Məmmədin 7 qardaşın bir bacısına aşiq olması süjeti

2. Divin qızı qaçırtması süjeti və Məlik Əhmədin divi öldürüb qızı xilas etməsi süjeti

3. Məlik Əhmədin Məlik Məmmədi nigah gecəsi gözləyən təhlükələrdən xilas etməsi süjeti

Kontaminasiya təhkiyəçinin (yazılı epik əsərlərdə-U.Q.) süjet içində süjetin söylənilməsi prinsipi ilə gerçəkləşir. Yəni şifahi xalq ədəbiyyatında söyləyicinin (şifahi epik əsərlərdə-U.Q.)nağıl içində nağıl söylənilməsi prinsipi ilə həyata keçirilir. Nağılçılıq ənənəsinin tənəzzülü dövründə kontaminasiya da yoxa çıxır.

Kontaminasiyanın üsulları vardır. Kontaminasiyanın üsulları calaq edilmiş süjetlərin bir araya gətirmək bacarığıdır. Kontaminasiya üsulları 3 cür olur:

1. Ənənəvi üsul
2. Fərdi üsul.
3. Yaranmış münaqişəni hekayə danışmaqla həll etmək.

4. Konflikt yaratmaqla hadisələrin inkişaf etdirilməsi

Kontaminasiya istənilən süjetin bir-birinə calaq edilməsi deyil. Yəni söyləyici istənilən süjeti bir-birinə calaq etməklə süjet çuğlaşması (süjetin calq edilməsini-U.Q.) yarada bilməz. Süjet çuğlaşması əlaqəsi olan süjetlərin bir-birinə calaq edilməsidir. Bu zaman kontaminasiyanın üsulları formalaşmış olur. Yəni bir-birilə uyum saxlayan süjetlərin, öz alarında tematik yaxınlığı olan süjetlərin bir-birinə calaq edilməsidir. Bu baxımdan süjet daxili kontaminasiyalar yaranır. Və süjet daxili komtaminasiyaların da 2 növü vardır:

1.Tematik kontaminasiyalar: Bir-birinə uyum saxlayan süjetlərin calaq olunmasıdır. Yəni: oxşar məzmunlu, eyni qəhrəman tipli süjetlərin birləşməsidir.

2.Personaj üzərində qurulan kontaminasiyalar: Hadisələr qəhrəmanın ətrafında cərəyan edir. Belə ki, hadisələr personajın səhnəyə çıxması ilə başlayır, qarşıya qoyduğu məqsədə çatması ilə tamamlanır. Loğman, Keçəl, İsgəndər, Şah Abbas haqqında şifahi ənənədə mövcud olan süjetləri söyləyici bir personaj ətrafında cəmləməklə yeni nağıllar yaratmışdır.

Kontaminasiya ümumi qanunauyğunluqları olan mürəkkəb bədii priyomdur. İşlənmə və yayılma arealına görə kontaminasiyalar 2 qrupa bölünür:

1. Beynəlxalq kontaminasiyalar: “Gəzən süjetlər”dən təşkil olunur. Yəni **süjetin bir neçə variantının** mövcudluğudur. Azərbaycan nağıllarında 28 beynəlxalq kontaminasiya tipi təsbit edilmişdir. Beynəlxalq kontaminasiyalar əlavə süjetlər hesabına zənginləşmişdir. Yəni beynəlxalq kontaminasiyalar **ənənəviləşməyən kontaminasiyadır.** Məsələn: “Min bir gecə” nağılı beynəlxalq kontaminasiya vasitəsi ilə şifahi ənənəyə daxil olmuşdur.
2. Milli kontaminasiyalar: **“Özək kombinasiyalar”** üzərində qurulan süjetlərdir. **Özək kombinasiya şifahi ənənədə kifayət qədər oturuşan** kontaminasiyadır, yəni süjet birləşməsidir. Milli kontaminasiya kontaminasiya olunmuş süjetlərin **ənənəviliyi üzərində** qurulur. Yəni ənənəviləşən kontaminasiyalar milli kontaminasiyalardır.

Folklorşünaslıqda süjet birləşmələri 2 yerə ayrılır:

I.Yaradıcı kontaminasiyalar: Yaradıcı kontaminasiyada bir süjetdən digər süjetə keçid təhkiyəçi tərəfindən əsaslandırılır, bağ yaradılır. Yaradıcı, güclü təhkiyəçiyə xas süjetdir. Bunlar da 2 yerə ayrılır:

1. Mürəkkəb süjetlər : Əsas və asılı süjet münasibəti əsasında yaranan kontaminasiyalar. Yəni **asılı süjetin əsas süjetə tabe tutulması prinsipi** üzərində qurulur. Bu zaman yardımçı motivlərə ehtiyac duyulur. Asılı süjet əsas süjetə tabe edilir. Əsas və asılı süjetlərin bir süjet daxilində birləşməsi mürəkkəb süjeti formalaşdırır. Mürəkkəb süjetdə (əsas və asılı süjetlərin birləşməsində-U.Q.) süjetlərin başlanğıc və son nöqtəsi məlum olmur. Ona görə də əhvalatn harada başlayıb, harada bitməsini təyin etmək çətindir. Yəni **müstəqil süjetlər şəklində olur.** Əsas və asılı süjetlərin birləşməsində konfliktlər daha gərgin olur. Əsas və asılı süjetlər eyni qəhrəman və onun yaşadığı anlar üzərində qurulur. Ona görə də süjetlər arasında üzvi bağ olur.
2. Sadə süjetlər: Bərabərhüquqlu, düz xətlə qurulan kontaminasiyalar bura daxildir. Bu süjetlərin ardıcıllığı prinsipi üzərində qurulur. Burada süjetin baş və son nöqtələri məntiqidir, yəni harda başlayıb harda bitməsini təyin etmək asandır. Yardımçı motivlərə ehtiyac yoxdur.

II. Mexaniki kontaminasiyalar: Süjetlərin kombinasiyası təsadüfi xarakter daşıyır, zahiri bənzərlik hesabına qurulur. Yəni bir süjetdən digər süjetə keçid əsaslandırılmır, bağ yaradılmır. Süjetlər fərqli qəhrəmanlar üzərində qurulmuş olur. Süjetlər arasında üzvi bağ olmur. Zəif təhkiyəçiyə xas süjetdir. Çünki zəif təhkiyəçinin süjet unutqanlığı ilə yazıya alınmışdır. Mexaniki

kontaminasiyada süjetlər sanki bir-birinə calaq edilmişdir. Bu da söyləyicinin qeyri-peşəkarlığından irəli gəlmişdir. Mexaniki kontaminasiya ənənəvi nağılların tənəzzülünün göstəricisidir. Mexaniki kontaminasiyada əsas və asılı süjetin tabeliliyi prinsipi olmur. Ona görə də əsaslandırmaya da ehtiyac duyulmur.

Kontaminasiyanın tənəzzülünü şərtləndirən amillər: Cəmiyyətdə gedən sosial-iqtisadi dəyişikliklərlə əlaqədar olaraq XX əsrin II yarısından etibarən folklor məclisləri artıq məişətdən çıxmışdır. Bununla əlaqədar olaraq nağılçılıq ənənəsi də zəifləməyə başlamışdır. **Müasir nağıllardakı kontaminasiyaların böyük qismi tematik birləşmə** üzərində qurulmuşdur.

Məlumdur ki, tematik süjet birləşmə məzmun baxımından bir-birinə yaxın olan süjetlər arasında qurulur, əsas və asılı süjetləri olur. **Tematik süjet birləşməsində asılı süjet əsas süjetə tabe tutulur. Asılı süjetin də əsas süjetə tabe tutulması ədəbiyyatşünaslıqda mürəkkəb kompozisiya** adlanır. Tematik birləşmədə kontaminasiya zənciri fərqli süjetlərdən təşkil olunur.

Nağıllarda qaravəlli süjetlərindən qurulmuş kombinasiyalara da rast gəlmək mümkündür. Bu qaravəlli janrının geniş aktiv olduğu vaxtlar idi. Mürəkkəb kombinasiyalı nağıllarda da asılı süjet əsas süjetin məzmununa tabe tutulur. Nağıllarda kontaminasiyanın tənəzzülünü şərtləndirən amillər aşağıdakılardır:

1. Güclü yaddaşlı söyləyicilər: Nağıl süjetini tematik süjet birləşməsi əsasında qurur. Qeyd edək ki, nağıl söyləyicinin yaddaşının gücü kontaminasiyaların **tamlığını** təmin edir. Belə ki, güclü yaddaşa sahib olan təhkiyəçilər özünəməxsus yaradıcılıq manevri ilə, yaradıcılıq vərdişi ilə seçilirlər. Bunlara usta söyləyicilər deyilir. Usta söyləyicilərin özünəməxsus yaradıcılıq təcrübəsi olur. Folklor ənənəsindən gələn bu nağılçılıq özündən sonrakı nəslə ötürülməsində xüsusi rol oynayır. Yəni **usta söyləyicilərin özünəməxsus təhkiyəsi** olur. Ola bilsin ki, **usta söyləyicilərin repertuarına xas təhkiyə sistemi, fərdi, özünə aid süjet birləşməsi** var. Bu **usta söyləyiciyə aid fərdi yaradıcılıq məhsulu** hesab edilir. Lakin bu fərdi yaradıcılıq məhsulunu biz **ənənədən gələn yaradıcılıq mənimsəməsi** hesab edirik. Usta söyləyicilərin təhkiyəsində nağılda bir süjetdən digər süjetə keçid zamanı əsaslandırılma güclü olur, bu zaman süjetdəki tamlıq qorunur.
2. Zəif yaddaşlı söyləyicilər: Belə təhkiyəçilrərin süjet birləşməsi **mexaniki süjet birləşməsi** adlanır. Mexaniki birləşmələrdə süjetlər bir arada verildiyindən çox kompozisiyalı əsər təsiri bağışlayır. Çünki onlar geniş auditoriya qarşısında çıxış etmir, yalnız nağılın quru məzmununu söyləyirlər. Bu zaman nağıl zəif söyləyici tərəfindən **natamam şəkildə** təqdim olunur. Bir **süjetdən digər süjetə keçid zamanı əsaslandırılma zəif** olur. Onlar ənənədən mənimsədikləri süjetlərin **sadəcə quru məzmununu** çatdırır. Göründüyü kimi, ənənəvi kombinasiyalar zəif söyləyicilərin repertuarında naqis şəkildə qorunub saxlanmışdır, çox itkilərə məruz qalmışdır.
3. Müasir dövrdə nağıllar əsasən yaşlı insanlar tərəfindən təhkiyə olunur, onların auditoriyası uşaqlardan və təsadüfi insanlardan ibarətdir. Varislik ənənəsinin pozulması nağılların şifahi ənənədən yox olmasına aparıb çıxarmışdır.
4. Müasir cəmiyyətdə XX əsrin II yarısından etibarən cəmiyyətdəki sosial iqtisadi həyatla əlaqədar olaraq kənd həyatı da şəhər mühitinə yaxınlaşmağa başladı. Şəhər və şəhərə yaxın məntəqələrdə folklor məclisləri müasir əyləncə vasitələri ilə rəqabətə tab gətirə bilməyib tədricən məişət həyatından çıxmağa başladı.

Ədəbiyyat:

1.Xalid Əlimirzəyev, (2008) “Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları”, Bakı

2. Mir Cəlal, Pənah Xəlilov,(2005) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı, Çaşıoğlu

3. Məmməd Əliyev, (2000) “Ədəbiyyat nəzəriyyəsinin əsasları”, Bakı

ISSN: 2181-4341, IMPACT FACTOR (RESEARCH BIB) – 9.145, SJIF – 5,431

9. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı

4.Nizaməddin Şəmsizadə, (2012) "Ədəbiyyat nəzəriyyəsi", Bakı

5. Rafiq Yusifoğlu, (2001) "Ədəbiyyatşünaslığın əsasları", Bakı

6. Rəhim Əliyev, (2008) "Ədəbiyyat nəzəriyyəsi", Bakı